# "Bir nəfəs qədər" tamaşası maraqla qarşılanıb



**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı "Bir nəfəs qədər" tamaşasını yenidən nümayiş etdirib.**

SSRİ Xalq artisti Fikrət Əmirovun musiqisi əsasında hazırlanan bu səhnə əsərinin ideya müəllifi və bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, quruluşçu rejissoru Samir Qulamov, quruluşçu dirijoru və musiqi tərtibatçısı Əməkdar incəsənət xadimi Fəxrəddin Atayevdir.

Bu dəfə də səhnə əsərində aktyorların məharəti onu daha baxımlı edib, tamaşa maraqla qarşılanıb. Qeyd edək ki, səhnə əsərində oğlunun şəhid olduğuna inanmayan, daim onun yolunu həsrətlə və böyük ümidlərlə gözləyən ananın obrazı canlandırılır. Ana inanır ki, oğlu nə vaxtsa mütləq qayıdacaq. Qaranlıq, uzun gecələrin birində ana sanki arzusuna çatır. Əslində isə xəyal və gerçəklik arasında övladının yoxluğu ilə barışmaq məcburiyyətində qalır.

Azərbaycan.- 2022.-25 noyabr.- S.14.